**A**zərbaycanın tarixi torpaqlarında - bugünkü Ermənistan ərazisindəki xalqımıza məxsus maddi-mədəni irsin, xüsusən qəbiristanlıqların məhv edilməsi, bu gün də beynəlxalq ictimaiyyətin diqqətindən yayınan böyük bir faciə olaraq qalır. Bu vandalizm aktları təkcə mədəni irsin deyil, eyni zamanda bir xalqın yaddaşının, tarixi köklərinin silinməsi məqsədi daşıyır. Qərbi Azərbaycan İcmasının təşəbbüsü ilə nəşr edilən, ideya müəllifi və layihə rəhbəri professor Ədalət Vəliyev, müəllifləri Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının sədri, filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent Əziz Ələkbərli və tarixçi-tədqiqatçı Səbuhi Hüseynov olan "Qərbi Azərbaycan İrsi: "Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli şəkildə dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" adlı kitab həm elmi-nəzəri, həm də hüquqi baxımdan xüsusi əhəmiyyətə malikdir.




# Ədalətin hüquqi ifadəsi

## *Tariximizin ən acı səhifələrindən biri Qərbi Azərbaycan torpaqlarında soydaşlarımıza qarşı həyata keçirilmiş etnik təmizləmə, mədəni irsimizin dağıdılması və sistemli assimilyasiya siyasətidir*

Kitabda Ermənistan ərazisində qalan qəbiristanlıqların indiki vəziyyəti təhlil olunur, uzun illər ərzində davam edən məqsədyönlü dağıntılar, yerli azərbaycanlıların tarixi izlərinin silinməsi cəhdləri sənədlərlə sübut edilir. Müəlliflər çox çətin bir işin öhdəsindən layiqincə gəliblər. Onlar bu dağıntıları yalnız sadalamaqla kifayətlənməyərək, konkret yerləri foto və xəritələrlə təqdim edir, bu ərazilərdəki vandalizm aktlarını beynəlxalq hüququn normaları çərçivəsində sənədləşdirirlər. İndiyədək sənədləşdirilməmiş bir çox cinayətlər - məzar yerlərinin dağıdılması, qəbir daşlarının oğurlanaraq tikinti materialı kimi istifadə edilməsi, məscidlərin, ziyarətgahların yerlə-yeksan olunması faktları əsaslandırılır. Bu məlumatlar təkcə ictimaiyyətə deyil, eyni zamanda beynəlxalq təşkilatlara, insan hüquqları qurumlarına təqdim edilə biləcək etibarlı mənbədir.

5 clddən ibarət olması nəzərdə tutulan kitabın I cildində 201 qəbiristanlığın monitorinqi, hazırkı vəziyyəti, fotofaktlarla sübut edilən dağıntı miqyası və məhvetmə texnologiyası ətraflı şəkildə göstərilmişdir. Məlum olur ki, tədqiqata cəlb edilmiş 201 qəbiristanlıqdan yalnız ikisi qismən salamat qalmışdır. Kitabda o da vurğulanır ki, Ermənistan hökuməti bu dağıntıları sistemli şəkildə - təbliğat, zorakılıq və hüquqi inkarçılıq alətləri ilə həyata keçirib.

Əslində bu ideya öz başlanğıcını Ümummilli lider Heydər Əliyevin çıxışlarından götürür. Belə ki, müasir Azərbaycanın siyasi həyatında Qərbi Azərbaycan terminologiyasından ilk dəfə Ümummilli Lider Heydər Əliyev istifadə etmişdir. Bundan sonra həm siyasi ədəbiyyatda, həm də siyasi platformalarda bu termin artıq öz gerçək yerini tutmağa başladı. Siyasi varislik məsələsini həmişə aktual saxlamaqla bu istiqamətdə siyasi platformanı gücləndirən Ulu Öndər 15 fevral 2000-ci ildə Cons-Hopkins Vaşinqton Universitetindəki çıxışında demişdir: "Bəli, Zəngəzurda azərbaycanlılar çox yaşayıbdır. Vaxtilə Zəngəzurun əhalisinin əksəriyyəti azərbaycanlılar olubdur. Ancaq Sovetlər İttifaqı yaranan zaman respublikaların xəritələri çəkilib, Zəngəzur Ermənistanın tərkibində qalıbdır. Azərbaycanlılar oradan tədricən köçüblər. Amma sizin nəzərdə tutduğunuz Mehri rayonunda 1988-ci, 1989-cu illərdə, 1990-cı ilə qədər daha çox azərbaycanlı yaşayıb, nəinki erməni".

Ümummilli Liderin irəli sürdüyü, ardıcıl olaraq həyata keçirdiyi bu konsepsiyanı hazırda Azərbaycan Prezidenti İlham Əliyev davam etdirir. Dövlət başçısı çıxışlarının birində bu mövzuya toxunaraq bildirmişdir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. Bu gün biz siyasi-hüquqi baxımdan çox düzgün və əsaslandırılmış şəkildə bu məsələyə yanaşırıq. Biz heç bir zorakılıq, heç bir münaqişə istəmirik. Amma Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıtması onların haqqıdır və bu haqq təmin olunmalıdır". Ölkə başçısının açıq mətnlə səsləndirdiyi bu fikirlər Azərbaycanın dövlət siyasətində Qərbi Azərbaycana qayıdışın fundamental prinsip kimi qəbul olunduğunu göstərir. Kitabın özəlliklərindən biri də odur ki, bu siyasi kursun elmi əsaslandırmasını təqdim edir və beynəlxalq səviyyədə Ermənistanın məsuliyyətə cəlb olunması üçün hüquqi baza formalaşdırır.

Ümummilli lider Heydər Əliyevin və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dərin məzmunlu və uzaqgörən fikirləri bu gün "Qərbi Azərbaycan İrsi" kitabının müəlliflərinin işi ilə öz elmi əsasını, sənədli dəlilini tapmaqdadır. Kitabda göstərilən faktlar təsdiqləyir ki, Ermənistan dövləti qəbiristanlıqları və ibadətgahları hədəfə alaraq, beynəlxalq humanitar hüququn tələblərini kobud şəkildə pozub, maddi-mənəvi mədəniyyəti məhv edib. Əsərdə təkcə statistik məlumatlar deyil, eyni zamanda konkret örnəklər - Ermənistan ərazisindəki Gorus, Sisyan, Amasiya, Vedi, Basarkeçər və digər bölgələrdə mövcud olmuş, lakin tamamilə məhv edilmiş qəbiristanlıqların taleyi də ayrıca təsvir olunur.

Kitabın analitik yanaşma tərzi onu sıradan bir araşdırmadan fərqləndirir. Burada yalnız faktların təqdimatı ilə kifayətlənilmir, eyni zamanda bu faktların beynəlxalq hüquq çərçivəsində necə qiymətləndirilə biləcəyi də izah olunur. Bu kontekstdə kitab Ermənistanın 1949-cu il Cenevrə Konvensiyalarını və 1954-cü il Haaqa Konvensiyasını pozduğunu sübut edən elmi-hüquqi bazadır. Beynəlxalq hüquqda "mədəni soyqırımı" anlayışı uzun illərdir müzakirə predmeti olsa da, "Qərbi Azərbaycan İrsi" bu anlayışın konkret təzahürlərini ortaya qoyur.

Bu hadisələrə dair aparılan jurnalist araşdırmaları da kitabın faktoloji bazasını gücləndirir. Media orqanlarında dərc olunmuş çoxsaylı materiallar, fotoşəkillər və yerli əhalidən alınan müsahibələr sübut edir ki, erməni vandalları bu əraziləri mənimsəmək üçün təkcə evləri deyil, məzar daşlarını da məhv edib, qəbiristanlıqları buldozerlə yerlə-yeksan ediblər. Qəbir daşları isə ya tikinti materialına çevrilib, ya da tamamilə daş karxanalarında yox edilib. Məsələn, yerli və beynəlxalq media qurumlarının yayımladıqları reportajlarda Zəngəzur, Göyçə, Dərələyəz və digər bölgələrdəki qəbiristanlıqların yerlə bir edilməsi, qəbir daşlarının yol tikintisində və başqa məqsədlərlə istifadəsi, qəbiristanlıq sahələrinin bostan və otlaqlara çevrilməsi xüsusi vurğulanır. Bu faktlar Ermənistanın azərbaycanlılara aid hər hansı izi məqsədli şəkildə silmək siyasətini nümayiş etdirir.

Nikol Paşinyanın hakimiyyəti dövründə də bu proses dayandırılmamış, əksinə daha sistemli şəkildə davam etdirilmişdir. Onun bir çıxışında söylədiyi "Ermənistan monoetnik dövlətdir və belə də qalacaq" fikri, etnik və dini təmizləmələrin, o cümlədən mədəni irsin məhvinin dövlət siyasəti səviyyəsində qəbul olunduğunu göstərir. Bu, sadəcə vandalizm deyil, mədəni soyqırımı aktıdır. Həmçinin Haaqa Konvensiyasının, UNESCO-nun "Mədəni irsin mühafizəsi haqqında" sənədlərinin kobud şəkildə pozulmasıdır. Ermənistan dövləti bu əməllərinə görə beynəlxalq hüquq qarşısında məsuliyyət daşımalıdır.

Kitab hüquqi baxımdan unikal dəyərə malikdir. Çünki burada göstərilən sənədlər, xəritələr və sübutlar beynəlxalq məhkəmələrə təqdim olunacaq səviyyədə toplanmış, beynəlxalq metodologiya əsasında tərtib edilmiş və beynəlxalq səviyyəli alimlərin əsərlərinə istinad edilmişdir. Bir sözlə, müəlliflər ilk dəfə olaraq erməniləri və onların havadarlarını elə öz yazdıqları ilə, özlərinin təqdim etdikləri faktlarla üz-üzə qoymuşlar. Bu isə o deməkdir ki, "Qərbi Azərbaycan İrsi" təkcə tarixi deyil, həm də hüquqi-siyasi manifestdir. Onun əsasında Ermənistanın məsuliyyətə cəlb olunması üçün konkret addımlar atıla bilər. Kitabda erməni vandalizminin yalnız qəbiristanlıqların dağıdılması ilə məhdudlaşmadığı, məscidlərin, karvansaraların, körpülərin, ziyarətgahların, milli arxitektura abidələrinin də eyni aqibətlə üzləşdiyi qeyd olunur. Yəni bu, kompleks bir mədəniyyət soyqırımıdır.

Ermənistanın hazırda "sülh çağırışları" fonunda keçmişə aid cinayətləri məhz belə sənədlərlə ifşa olunmalı və dünya ictimaiyyətinin diqqətinə təqdim edilməlidir. Nikol Paşinyan 2021-ci ildə bir çıxışında iddia etmişdi ki, "Ermənistan heç bir dini və mədəni abidəni məqsədli şəkildə dağıtmamışdır". Lakin "Qərbi Azərbaycan İrsi" kimi əsərlər bu kimi bəyanatların yalan olduğunu sübut edən mötəbər mənbə kimi çıxış edir. Təhlillər göstərir ki, kitab həm də böyük ictimai rezonansa səbəb olub. Sosial şəbəkələrdə, elmi dairələrdə və ictimai-siyasi təşkilatlarda əsərin geniş müzakirəsi aparılıb. Bir çox mütəxəssislər bildirirlər ki, bu kitab Ermənistanın gələcəkdə beynəlxalq məhkəmələr qarşısında cavab verməsi üçün mühüm bazadır. Əsərin əhəmiyyətli tərəflərindən biri də milli kimliyin və yaddaşın yalnız emosional çərçivədə deyil, elmi təhlil və hüquqi müstəvidə təqdim edilməsidir. Bu, Azərbaycan tərəfinin beynəlxalq hüquq və siyasət müstəvisində arqumentlərini gücləndirir. Məhz bu səbəbdən "Qərbi Azərbaycan İrsi" əsəri yalnız Azərbaycan ictimaiyyəti üçün deyil, beynəlxalq insan haqları institutları, tarixçilər, jurnalistlər və diplomatlar üçün də faydalı mənbədir.

İnsanlarda dərin inam yaranıb ki, tezliklə doğma və əzəli torpaqlara qayıdacaqlar və haqq-ədalət öz yerini tapacaq. Prezident İlham Əliyevin də bu məqamın üzərində xüsusi dayanaraq söylədiyi "Bizim əsas məqsədimiz azərbaycanlıların tarixi torpaqları olan Qərbi Azərbaycana qayıdışını təmin etməkdir. Biz oraya sülh yolu ilə, beynəlxalq hüquqa əsaslanaraq qayıdacağıq. Bu bizim tarixi və təbii haqqımızdır" fikri insanların qəlbində ümid işığı yandırıb. Təqdirəlayiq haldır ki, Qərbi Azərbaycan İcması, eləcə də əsərin müəllifləri bu prosesə həm elmi, həm hüquqi, həm də siyasi aspektdən yanaşır. Bu əsər həm də milli özünüdərk baxımından mühüm vəsaitdir, azərbaycanlıların tarixi yaddaşını dirçəldir, yeni nəsillərə bu torpaqların onların ata-baba yurdu olduğunu izah edir. Gələcək nəsillər üçün bir növ yaddaş kitabına çevrilir.

Prezident İlham Əliyevin "Biz təkcə insanlarımızın hüquqlarını deyil, tarixi yaddaşımızı da müdafiə etməliyik" fikirləri kitabın əsas mesajı ilə səsləşir. Aydın olur ki, tarixi yaddaşın bərpası və beynəlxalq hüquqi müstəvidə təqdimatı, Azərbaycan dövlətinin strateji hədəfləri sırasındadır. Kitabın ideya müəllifi və layihə rəhbəri, professor Ədalət Vəliyev "Ön söz"də yazır: "Əminik ki, tədqiqat müvafiq beynəlxalq təşkilatlar qarşısında Ermənistanın hüquqi məsuliyyətinə dair məsələ qaldırılması baxımından əhəmiyyətli olacaqdır. Beynəlxalq təşkilatların və dünya dövlətlərinin bu məsələyə diqqəti Ermənistanda azərbaycanlılara məxsus olan və hələ də xarabalığı qalan 50 qəbiristanlığın yer üzündən silinmək təhlükəsini aradan qaldıracaqdır".

Kitab gələcək nəsillər üçün dəyərli bir vəsaitdir. Öz dədə-baba yurdlarını görməyən gənclər bu kitab vasitəsilə oraların tarixini, coğrafiyasını və mədəniyyətini öyrənə, yaddaşlarını təzələyə bilərlər. Bu, həm də ideoloji və milli birliyimizi möhkəmləndirən vasitədir. Müəlliflər bu əsəri təkcə elmi məqsədlə deyil, həm də mənəvi bir borc kimi ərsəyə gətiriblər. Bölgədə tədqiqat aparmaq, məlumatları toplamaq, həm də onların elmi şəkildə işlənməsi və təqdimatı baxımından müəlliflərin çəkdikləri zəhmət, yalnız Azərbaycan elmi üçün deyil, ümumən milli-mənəvi varlığımız üçün mühüm töhfədir. Təkcə qələmlə deyil, ruh və vicdanla yazılmış bu əsər, Azərbaycan xalqının haqlı mübarizəsinin təməl daşı olacaqdır.

**Şəmsi QOCA,**
**Qərbi Azərbaycan İcması Mərkəzi Aparatının elmi işçisi.**

Respublika.- 2025.- 6 avqust (№ 162).- S.10.